# "TAHİR SALAHOV – 90"




**Azərbaycanın media məkanında özünəməxsus yeri olan dərgilərdən biri də "Tarixi şəxsiyyətlər" adlanır və kifayət qədər özünü təsdiq etmişdir. Bir oxucu olaraq mənim dəfələrlə təmasda olduğum bu jurnalın ən önəmli cəhətlərindən biri odur ki, yarandığı gündən "Tarixi şəxsiyyətlər" öz prinsiplərinə sadiqdir. Yəni öncədən də öz oxucularına üz tutaraq məqsədini şərh edən "Tarixi şəxsiyyətlər" istər ölkə daxilində, istər onun hüdudlarından kənarda yaşamış və bu gün də yaşamaqda olan dünyaşöhrətli insanları, xüsusilə Azərbaycanla bağlı olan şəxsləri öz oxucularına geniş şəkildə təqdim edir.**

"Tarixi şəxsiyyətlər"in səhifələrində mən bir-birindən maraqlı insanların həyat fəaliyyəti ilə tanış olmuşam. Onların arasında Türkiyənin sabiq və bügünkü rəhbərlərinin də təqdimatı məndə maraq yaradıbdı. Bax, elə indi sizlərə təqdim etdiyim növbəti sayda dünyaşöhrətli rəssam, Azərbaycan adını və rəngkarlığını hər yerdə uca tutan Tahir Salahova həsr edilibdi. Demək olar ki, jurnalın ilk səhifəsindən son üz qabığına qədər hər bir yazıda, hər bir fikirdə, təqdim olunan hər bir rəsm əsərində Tahir Salahov dünyası açıq-aşkar görünür.

Bu böyük rəssamın barəsində Azərbaycan prezidenti cənab İlham Əliyevin fikirləri xüsusilə maraqlıdır. Həmçinin ölkə prezidentinin bu böyük insanla birgə şəkilləri, həmçinin xalq yazıçısı Anarın, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin, SSRİ xalq rəssamı E.Belaşovanın, SSRİ Rəssamlar Akademiyasının həqiqi üzvü, professor, SSRİ xalq rəssamı V.Yefanovun, yazıçı, Sosialist Əməyi Qəhrəmanı N.Tixinovun və digər dünyaşöhrətli mədəniyyət adamlarının Tahir Salahovla bağlı bir-birindən maraqlı fikirləri jurnalı daha da maraqlı edibdi.

**Ümumiyyətlə, jurnalda akademik, xalq rəssamı Ömər Eldarovun, tanınmış mədəniyyət xadimi, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun, akademik, millət vəkili İsa Həbibbəylinin, professor Çingiz Fərzəliyevin, xalq rəssamı Ağaəli İbrahimovun, sənətşünas, əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin və digərlərinin Tahir Salahovla bağlı jurnalda yer alan fikirləri, məqalələri "Tarixi şəxsiyyətlər"i bizə sevdirir. Düşünürəm ki, jurnalın baş redaktoru Xəlil Qaraəhmədovun iki dildə, yəni azərbaycan və rus dillərində böyük oxucu auditoriyası üçün zövqlə və tutarlı bir şəklidə hazırladığı "Tarixi şəxsiyyətlər"in hər bir sayı həmişə olduğu kimi, bundan sonra da oxucuların diqqət mərkəzində olacaqdır.**

**Əbülfət MƏDƏTOĞLU**